**UOT 7.02**

**Gülnar Mövsüm qızı Seyidova**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru**
**E-mail: seyidova-g@mail.ru**

# DULUSÇULUQ SƏNƏTİNİN YARANMA VƏ İNKİŞAF TARİXİ (QƏDİM DÖVR VƏ ORTA ƏSRLƏR KONTEKSTİNDƏ)

**Xülasə:** Məqalədə dulusçuluq sənətinin yaranma və inkişaf tarixindən bəhs olunur. Qeyd edilir ki, dulusçuluq sənəti öz kökləri ilə qədim dövrlərə gedib çıxır. Hələ yaxın keçmişdə aparılan tədqiqat işlərinə nəzərən tarixçilər dulusçuluq sənətinin minilliklər öncə meydana gəlməsini müəyyənləşdirmişlər. Belə ki, tədqiqatçılar Xorvatiyada aparılan arxeoloji qazıntılar nəticəsində tarixi 17,5 min il əvvələ gedib çıxan kiçik heyvan fiqurlarına rast gəlmişlər. İlk bişirilmiş saxsı qab mezolit dövrünə aid edilir. Bunu da qeyd edək ki, dulusçuluq sənəti Azərbaycan ərazisində də hələ ibtidai dövrdən formalaşıb inkişaf etməyə başlamışdır. İbtidai və Qədim dövrdə Azərbaycan ərazisində iki tip dulusçuluq məmulatı istehsal edilirdi: cilalanmış qara rəngli keramika və qırmızı gil keramika.

**Açar sözlər:** dulusçuluq, keramika, sənət, metodika, tədris

Dulusçuluq sənəti öz kökləri ilə qədim dövrlərə gedib çıxır. Qədim insanlar hələ primitiv əkinçilik texnikasına yiyələnməmişdən əvvəl dulusçuluq artıq bir sənət sahəsi kimi məlum idi. Müasir dövrümüzdə isə dulusçuluq sənəti yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Hələ yaxın keçmişdə aparılan tədqiqat işlərinə nəzərən tarixçilər dulusçuluq sənətinin minilliklər öncə meydana gəlməsini müəyyənləşdirmişlər. Misal olaraq, Xorvatiyada aparılan arxeoloji qazıntılar nəticəsində tarixi 17,5 min il əvvələ gedib çıxan kiçik heyvan fiqurlarına rast gəlmişlər.

İlk bişirilmiş saxsı qab mezolit dövrünə aid edilir. Qeyd etmək lazımdır ki, əvvəlcə sənətkarlar gili elastik material olaraq qabların hazırlanmasında deyil, təbii məmulat kimi heyvanların kiçik heykəlciklərinin yapılmasında istifadə edirdilər. Çox güman ki, bu heyvan fiqurları ayin xarakteri daşımış, totem və qoruyucu həmail (dua) rolunu oynamışlar.

Sənətkar aləti kimi dulusçuluq dairəsinin adı hələ Əhdi-Cədiddə çəkilir. Məlumdur ki, bir müddət insan yalnız əl əməyinə güvənə bilmiş və o zaman gilin daha çox imkanlara malik olduğunu anlamışdır.

Gil dünyanın hər yerində yayılıb. Bu isə o deməkdir ki, dünyanın müxtəlif nöqtələrində yaşayan insan zəngin imkanlara malik təbii material olan gilə müraciət etmişdir. Sənətkarın əlində plastik substansiya nəinki forma əmələ gətirmiş, eyni zamanda vacib əhəmiyyət əldə etmişdir. Lakin unutmaq lazım deyil ki, dünyanın hər bir nöqtəsində dulusçuluq sənətinin öz tarixi vardır.

Çində dulusçuluq sənəti eramızdan 2000 il əvvəl meydana gəlmişdir. Misal olaraq, Çin imperiyasının son dərəcə ifadəli keramika və çini nümunələrini göstərmək olar. Həmçinin antik dünyada da dulusçuluq istehsalatının təşkili haqqında da ətraflı məlumat mövcuddur. Belə ki, antik dövrün sənətkarları tərkibində dəmir olan gildən istifadə edirlərmiş, bu isə öz növbəsində onların əlində zərif amfora və qablara çevrilirmiş.

Əsrlərlə dulusçuluq sənəti inkişaf etmiş və təkmilləşdirilmişdir. Orta əsrlərdə keramik qabları gümüş, qızıl və qalaydan hazırlanmış məmulatlar sıxışdıraraq istifadədən çıxarmışdır. Metal gilin ciddi rəqibinə çevrilsə də, sənətkarlar zənginlər üçün dulusçuluq dairəsində monoqramların, kaşıların, irsi gerblərin istehsalına davam edirdilər. Sadə əhali isə belə bir dəbdəbədən uzaq qalırdı.

Rus ərazilərində dulusçuluq sənətkarlığı hələ tarixdən əvvəlki dövrlərdə inkişaf etməyə başlamışdır. Müasir dövrümüzdə arxeoloqlar qazıntılar zamanı müxtəlif dövrlərdə yaşamış insanların məişət və yaşayış səviyyəsindən xəbər verən artefaktları aşkar edirlər. Ən maraqlı nümunələr isə hələ dulusçuluq dairəsinin meydana gəlməsindən öncə hazırlanmış keramik məmulatlardı. İnsanlar xüsusi dairədə gil məmulatlar hazırlamağa başlayanda sənətkarlıq artıq bir sənət sahəsinə çevrildi və öz çiçəklənmə dövrünə qədəm qoydu.

Dulusçuluq emalatxanaları meydana gəldi və emalatxana sahibləri istehsal etdiyi məmulata öz emalatxanasının möhürünü vurmağa başladı. Məmulatın quruluşu, ölçüləri, bişirilmə texnikası – bütün bunlar həmin dövrdə dulusçuluq hesab olunan böyük mədəni bazarın alətləri idi.

IX əsrdə ruslarda dulusçuluq dairəsi tanınmırdı, gil məmulatların hazırlanması ilə xüsusilə qadınlar məşğul olurdu. Təmiz gilin tərkibinə qum, kiçik balıqqulağılarını, kvars və qranit qırıqlarını əlavə edirdilər.

IX əsrin sonunda ölkənin cənubunda dulusçuluq dairəsi meydana gəldi. Bu inkişaf isə həmin torpaqlara slavyan tayfalarının köçü ilə əlaqədar idi. Məhz bu texniki yüksəliş dulusçuluq sənətinin meydana gəlməsinə səbəb oldu. Artıq kişilərin də çalışdığı emalatxanalar yarandı və beləliklə, dulusçuluq sənəti bilavasitə kişi məşğuliyyətinə çevrildi.

Sonradan rus dulusçuluq sənəti zəifləməyə başlayır. Tatar-monqol istilası qədim Rus tarixini dəyişir və bununla da keramika sənətkarlığının inkişafı dayanır.

Gil məmulatların quruluşu kobudlaşır, dulusçuların görkəmli işləri məhv olur.

Yalnız istilaçılardan azad olduqdan sonra dulusçuluq sənəti dirçəlməyə başladı. Dəyişikliyə uğradıqdan sonra dulusçuluq sənəti texniki imkanların sayəsində bugünkü günümüzə qədər gəlib çıxmışdır.

Dulusçuluq sənəti Azərbaycan ərazisində hələ ibtidai dövrdən formalaşıb inkişaf etməyə başlamışdır. Qeyd edək ki, ibtidai dövrdə Azərbaycan ərazisində iki tip dulusçuluq məmulatı istehsal edilirdi: cilalanmış qara rəngli keramika və qırmızı gil keramika.

Cilalanmış qara rəngli keramika, əsasən, Eneolit dövründən yaranmağa başlamış, Tunc dövründə isə inkişaf zirvəsinə çatmışdır.

İlk qara rəngli gil qablar Eneolit dövründə hazırlanmışdır. Lakin dulusçular bu dövrdə kürələrdə yüksək istilik əldə edə bilmədiklərindən və qara keramikanın texnologiyası hələ lazımınca məlum olmadığından ilk nümunələr olduqca nöqsanlı idi. Onların plastik forması yöndəmsiz, qara rəngləri ala-tala, dekorativ motivləri isə son dərəcə ibtidai şəkildə alınırdı. Bununla belə, Eneolit dövrünə aid qablarda qabarıq şəkildə olan qəribə naxışlar diqqəti daha çox cəlb edir.

Cilalı qara keramika Azərbaycanın Xocalı, Mingəçevir, Çovdar, Xanlar kimi ərazilərində yayılmış qədim məişətlə və dəfn ayinləri ilə əlaqədar inkişaf etmiş- dir. Belə məmulatın yaradılmasında əksər hallarda dulusçuluq dəzgahından istifadə edildiyindən qabların plastik quruluşu yüksək estetik keyfiyyətə malikdir.

Ustalar məmulata dekorativ forma vermək üçün dulusçu dəzgahından bacarıqla istifadə etmişlər. Dulusçular qədim keramik məmulatı qara rəngə boyamaq üçün adi hisdən bacarıqla istifadə etmişlər. Bu məqsədlə onlar açıq havada qurudulmuş gil qabları əvvəlcə hamar sümük və yaxud başqa bərk cisimlə yaxşıca sürtərək onun üzərindəki məsamələri doldurub bərkidirdilər, bunu ona görə edirdilər ki, qabkürədə bişəndən və qara rəng alandan sonra həm cilalanmış, həm də və parıltılı ol-sun. Bu qayda ilə hazırlanan qablar tamamilə qara rəngli və cilalanmış olur. Lakin elə qablara da rast gəlirik ki, onların gövdəsi boz, üzərindəki həndəsi naxışlar isə tünd-qara rəngli və parıltılıdır. Belə hallarda həmin qablar bişirilməmişdən qabaq yuxarıdakı üsul ilə hazırlanır. Fərq ancaq orasındadır ki, bu tip məmulatın bütün səthi deyil, ancaq naxışları sürtülüb bərkidilir. Nəticədə qab bişəndən sonra onun sürtülmüş naxışları tünd-qara və cilalı, ornamentin yerliyi isə boz rəngdə olur.

Gil məmulatları hisə verirkən müxtəlif səbəblər üzündən, məsələn, kürədə (sobada) istiliyin azlığından qabların divarları zəruri qədər genişlənmir, nəticədə kifayət qədər his qəbul etmədiyindən qablar qara deyil, boz rəng alır.

Qara keramikanın bədii şəklə düşməsi üçün Tunc dövrünün dulusçuları başqa vasitələrdən də istifadə etmişlər. Onlar qabların cızma təsvirlə bəzədilməsinə, cız-

ma rəsm və naxışların ağ maddə ilə inkrustasiya edilməsinə və nəhayət, fiqurlu keramikanın yaradılmasına da əhəmiyyət vermişlər. “Fiqurlu keramika nümunələri bu dövrdə məlum texnologiyaya əsasən cilalanmış qara və boz rənglərdə olurdu. Bunlar əsasən müxtəlif mahiyyətlər daşıyan qab şəklində və kiçik heykəllər formasında düzəldilirdi. Araşdırmalar göstərir ki, dulusçular fiqurlu qabların düzəldilməsində daha yüksək nailiyyətlər əldə etmişlər. Bu dövrdə fiqurlu qablar, əsasən, yaxşı yoğurulmuş və bəzən də üyüdülmüş gildən hazırlanırdı. Onların üzəri hamar və bəzəkli olurdu. Tunc dövrünə aid olan fiqurlu keramikalar içərisində quş, heyvan, ev və araba modellərinə xüsusilə tez-tez təsadüf edilir” [1, s.15-16].

İkinci tip qırmızı gil keramikadır ki, bu, ölkənin cənub rayonları (xüsusilə Naxçıvan zonası) üçün səciyyəvidir. Bu tip keramika polixrom, əlvan rəngli olduğu üçün ona boyalı keramika adı verilmişdir. Bu tipli qabların saxsısı dulusçuluq kürəsində bişəndən sonra qırmızı və sarı rəng alır. Belə gil məmulatın üzərində bir qayda olaraq sarı, göy, qara, çox zaman qəhvəyi boyalarla çəkilmiş quş, heyvan və insanların stilizə edilmiş təsvirlərinə rast gəlirik.

Azərbaycanda boyalı qablar istehsalı Tunc dövründə (e.ə. II minillikdə) inkişaf tapmışdır. Azərbaycanda boyalı keramika sənətinin inkişafı qədim İran qəbilələri ilə iqtisadi-mədəni əlaqələrin qurulması nəticəsində meydana çıxmışdır.

Qeyd edək ki, “qədim dulusçuluq məmulatlarının qırmızı və qara rəngdə olmasının sirrini ilk dəfə Türkiyənin dulusçuluq sənəti üzrə araşdırıcısı Nuru paşa açdı. İndi artıq məlumdur ki, gil qablar kürədə bişərkən, gilin tərkibində olan dəmir duzları istiliyin təsiri nəticəsində dəmir oksidinə çevrilir. Dəmir oksidləri isə bişmiş qablara qırmızı, çəhrayı, qəhvəyi, sarımtıl qırmızı rənglər verir. Qədim dulusçular gil qabları bu rənglərdən azad edib, onlara qara və boz rənglər vermək üçün texnoloji üsul axtarıb tapmışlar. Onlar bu üsulu kəşf edərkən fiziki qanuna, maddələrin istidən genişlənib, soyuqdan sıxılması qanununa əsaslanmışlar” [1, s.13].

Azərbaycanda Tunc dövrünün boyalı keramikası iki üsulla: əllə və dulusçuluq dəzgahında hazırlanırdı. Bu qabların üzərində təsvirlərdən əlavə dalğavarı sınıq və mürəkkəb şəkilli düz xətlərdən ibarət naxışlar da çəkilirdi. Qeyd edək ki, boyalı keramika nümunələri daha çox Naxçıvan, Qarabağ, Mil düzü, Xanlar və Qazax rayonlarında olan qədim yaşayış yerlərindən və qəbirlərdən tapılmışdır.

**Ədəbiyyat siyahısı:**

1.Əfəndi R. Azərbaycan incəsənəti. Bakı: Şərq-Qərb. 2007, s. 282.
2.Əfəndiyev R. Azərbaycan bədii sənətkarlığı dünya muzeylərində. Bakı, 1980.
3.Kərimov K.C., Əfəndiyev R.C., Rzayev N.İ., Həbibov N.D. Azərbaycan incəsənəti. Bakı, 1992. s. 212.

4.Агамалиева С.М. Гончарство Азербайджана. Баку: Элм, 1987, 133 с. 5.Изотова М.А. Гончарные работы для дома и заработка. «Феникс», 2008. 252 с.6.Чаварра Х. Техника работы на гончарном круге. Москва, 2003.

**Гюльнар Сезюм кызы Сеидова**

## ИСТОРИЯ ВОЗНИКНОВЕНИЯ И РАЗВИТИЯ ГОНЧАРНОГО ИСКУССТВА (В КОНТЕКСТЕ АНТИЧНОСТИ И СРЕДНЕВЕКОВЬЯ)

**Резюме:** В статье рассказывается об истории возникновения и развития гончарного искусства. Отмечается, что гончарное искусство уходит своими корнями в древние времена. Глядя на исследования, проведенные еще в не- давнем прошлом, историки определили, что гончарное искусство возникло тысячелетия назад. Так, исследователи в результате археологических раскопокв Хорватии обнаружили фигурки мелких животных, история которых восхо-дит к 17,5 тыс. лет назад. Первая приготовленная глиняная посуда датируетсяпериодом мезолита. Отметим также, что гончарное искусство на территории Азербайджана начало формироваться и развиваться еще с первобытного пе- риода. В первобытные и древние времена на территории Азербайджана про- изводили два вида керамики: полированную черную керамику и керамику изкрасной глины.

**Ключевые слова:** гончарство, керамика, искусство, методика, обучение.

**Gulnar Movsum gizi Seyidova**

## FORMATION AND HISTORY OF DEVELOPMENT OF POTTERY ART (IN THE CONTEXT OF ANCIENT PERIOD AND MIDDLE CENTURIES)

**Summary:** The article talks about formation and history of development of pottery. It is noted that art of pottery dates back to ancient period. According the lastresearches historians revealed that pottery was formed several thousand years ago.So, archeological excavations held in Croatia revealed small animal figures dated back to 17,5 thousand years ago.

**Key words:** pottery, ceramics, art, methodic, teching

**Məqalənin redaksiyaya daxil olma tarixi: 05. 10. 2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**